# 06 İbrahim (İbram)

## Yaradılış 12:1-9

1 Rəbb İbrama dedi: «Öz torpağından, qohumlarının arasından, ata evindən çıx, sənə göstərəcəyim
torpağa get. 2 Səndən böyük bir millət törədəcəyəm, sənə xeyir-dua verəcəyəm, adını ucaldacağam
və bərəkət qaynağı olacaqsan. 3 Sənə xeyir-dua verənlərə xeyir-dua verəcəyəm, sənə lənət edənləri
lənətləyəcəyəm. Yer üzünün bütün tayfaları sənin vasitənlə xeyir-dua alacaq». 4 İbram Rəbbin ona
söylədiyi kimi oradan çıxdı. Lut da onunla birgə getdi. Xarandan çıxdığı vaxt İbram yetmiş beş
yaşında idi. 5 İbram arvadı Sarayı, qardaşı oğlu Lutu, Xaranda əldə etdikləri bütün əmlakı və özünün
bütün nökərlərini götürüb Kənan torpağına tərəf yola düşdü. Onlar Kənan torpağına gəldilər. 6 İbram
oranı dolaşıb, Şekem deyilən yerdəki More palıdının yanına çatdı. O vaxt bu torpaqda Kənanlılar
yaşayırdı. 7 Rəbb İbrama görünüb dedi: «Bu torpağı sənin nəslindən olana verəcəyəm». İbram ona
görünən Rəbbə orada bir qurbangah düzəltdi. 8 Buradan Bet-Elin şərqində yerləşən dağlıq yerə tərəf
yola düşdü və burada çadır qurdu. Çadırdan qərbdə Bet-El, şərqdə isə Ay şəhəri idi. İbram orada da
Rəbbə bir qurbangah qurdu və Rəbbə sitayiş etdi. 9 İbram tədricən cənuba doğru hərəkət edirdi.

## Yaradılış 15:1-7

1 Bir müddət sonra İbrama görüntüdə Rəbbin bu sözü nazil oldu: «Ey İbram, qorxma. Sənin
qalxanın Mənəm. Mükafatın çox böyük olacaq». 2 İbram dedi: «Ey Xudavənd Rəbb, mənə nə
verəcəksən? Mənim övladım yoxdur, evimin sahibi bu Dəməşqli Eliezer olacaq». 3 İbram sözünə
davam etdi: «Sən mənə övlad vermədiyin üçün evimin nökəri mənim varisim olacaq». 4 Ona Rəbbin
bu sözü nazil oldu: «O sənin varisin olmayacaq, öz belindən gələn övladın sənin varisin
olacaq». 5 Rəbb onu bayıra çıxarıb dedi: «Göyə bax, oradakı ulduzları saya bilərsənsə, say». Yenə
dedi: «Nəslin o qədər olacaq». 6 İbram Rəbbə iman etdi və Rəbb bunu ona salehlik saydı. 7 Rəbb
İbrama dedi: «Bu torpağı sənə irs olaraq vermək üçün səni Xaldeylilərin Ur şəhərindən çıxaran Mən
Rəbbəm».

## Sorular:

- Tanrı haqqında nə öyrənirik?
- İnsanlar haqqında nə öyrənirik?
- İbram Tanrıdan hansı vədləri aldı?
- İbram vədlərini almaq üçün nədən imtina etməli idi?
- İbramın imanına görə Rəbbin onu saleh sayması, bizim də Tanrıdan lütf ala bilməyimiz ücün bizə nəyi öyrədir? (15:6)
- Sizə açılanları kiminlə bölüşmək istərdiniz?